AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 100-103
https://doi.org/10.59849/2664-5432.2026.2.100

Zemfira ƏLİYEVA*

DİLİN ETİMOLOGİYASINDA VƏ TARİXİNDƏ SÖZÜN SİMVOLİK MƏNASI

XÜLASƏ

Məqalədə sözün məna kateqoriyası araşdırılır. Məna xüsusi semiotik hadisə, ikiqat işarələrə malik olan obrazlı işarə kimi nəzərdən keçirilir.

Simvolik məna sözün ilkin və ikinci dərəcəli mənalarının birləşməsi nəticəsində yaranır.

Belə mənalar ilk növbədə dilin ritual istifadəsi zamanı meydana çıxır, tarixi mənbələrdə qeydə alınmış polisemiya formalarında öz əksini tapır.

Açar sözlər: *tarixi leksikologiya, leksik semantika, dil tarixi, simvolik məna, polisemiya (çoxmənalılıq).*

Sözün simvolik mənası leksikologiyanın elə bir kateqoriyasıdır ki, bu günə qədər nə mahiyyət baxımından, nə də metodoloji cəhətdən kifayət qədər dəqiq müəyyənləşdirilməmişdir. XX əsrdə filologiyada simvolun tədqiqi əsasən ədəbiyyatşünaslıq və fəlsəfə sahələri ilə məhdudlaşmış, dilçilərin diqqəti məntiqi strukturlara, leksik strukturlara, leksik məna ilə anlayış arasındakı münasibətlərə yönəlmişdir. Dilçilikdə mövcud olan bu problemin həllində mühüm dönüş nöqtəsi kimi V.M.Qasakın əsərini misal göstərmək olar. Burada "simvol" anlayışının ziddiyyətli xarakteri göstərilir, həmçinin simvolun dilçilik baxımından və ya əsasən konversional işarə (simvolun birinci tipi) kimi deyil, hər şeydən əvvəl "ikiqatlaşdırılmış" əlavə məzmununa malik işarə (simvolun ikinci tipi) kimi öyrənilməsinin perspektivləri nəzərdən keçirilmişdir.

Dilçiliyin bəzi sahə və istiqamətlərində "simvolik məna" anlayışı artıq uzun müddətdir ki, aktual kateqoriya hesab olunur. Burada sözün simvolik mənası dillərin müqayisəli tədqiqi kimi araşdırılır.

Praktiki baxımdan belə tədqiqatçılar ilkin və ikinci dərəcəli, denotativ və konnotativ mənalar nəzəriyyəsinə əsaslanır. Bu yanaşmaya görə, simvolik məna ilkin denotativ məna ilə motivləşdirilmiş əlaqəyə malik olmayan konnotativ ikinci dərəcəli məna hesab edilməlidir. Belə ki, simvolik məna ilkin sememin təbii inkişafı ilə izah edilə bilməz [Qasak, 1977].

Buradan belə nəticə çıxır ki, simvol – sözlər sırasına yalnız motivləşdirilməmiş, konfensional semiotik vahidlər (işarələr) aid edilməlidir ki, bu da əlbəttə, Ferdinand de Sössürün məşhur müddəalarına tam uyğundur.

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Nəzəri dilçilik şöbəsi, baş elmi işçi, filologiya elmləri doktoru.

Simvolun mənalarının araşdırılmasında F. de Sössürlə yanaşı bir çox nüfuzlu alimlərin adını da qeyd etmək lazımdır. K.Q.Yunq, P.Florenski, E.Fromm, K.Yaspers, T.Todarov, A.F.Losev, V.N.Toporov və s.

Lakin qeyd etmək lazımdır ki, F. de Sössür və R.Yakobson simvolun təbiəti haqqında tamamilə əks mövqelərdən çıxış edirdilər. R.Yakobson hesab edirdi ki, simvolda xarici ifadə ilə daxili məzmun arasında qanuni, yəni "daxili zərurətdən irəli gələn əlaqə"ni görmək lazımdır.

V.M.Qasak simvolda "predmetin daxili məzmununu və ya daxili həyat ilə onun xarici ifadəsi arasındakı əlaqəni" görürdü. Bir-birini qarşılıqlı surətdə inkar edən və ziddiyyət təşkil edən müddəalar üzərində dilçilik nəzəriyyəsi qurmaq mümkün deyil. Simvolun və müvafiq olaraq simvolik mənanın öyrənilməsi zaman ilk növbədə onun təbiəti məsələsi müəyyənləşdirilməlidir: simvol şərti və motivləşdirilməmiş bir işarədirmi, yoxsa motivləşdirilməmiş bir vahiddirmi?

Bu sualın həllindən məhsuldar tədqiqat metodologiyasının qurulması asılıdır. Məsələn, metafora ilə simvolun motivləşdirilmiş və motivləşdirilməmiş semantik hadisələr kimi qarşılaşdırılmaması filoloji nəzəriyyə tərəfindən təsdiqlənmir. Çünki simvolun şübhəsiz şəkildə motivləşdirilməmiş xarakter daşıdığını iddia etmək çətindir [Kovtun, 1971: s. 178-179].

Simvolik mənalarının tədqiqi metodologiyası adətən dil ilə mədəniyyət arasındakı tezisə əsaslanır. R.Yakobsonun əsərlərində göstərildiyi kimi, simvolik strukturlar mədəniyyətin bütün sahələrində mövcuddur və eyni zamanda dil formalarının inkişafının son mərhələsini təşkil edir. Bu zaman təbii dil mədəniyyət kodlarından biri – ilkin kodlaşdırıcı sistem kimi nəzərdən keçirilməlidir ki, bu yanaşma filologiyada uzunmüddətli ənənəyə malikdir. Burada mədəniyyət mətn, genişlənmiş kod və dilə münasibətdə ikinci dərəcəli sistem kimi başa düşülür.

Mədəniyyət fenomenlərinin tədqiqində "simvol" termini kifayət qədər geniş şəkildə istifadə olunur. məsələn, etnoqrafik və arxeoloji araşdırmalarda simvol müəyyən qrafik forma kimi başa düşülür və bu forma hər hansı abstrakt mahiyyətə xüsusən dini anlayışlara, etik normalara və kosmoloji təsəvvürlərə işarə edir.

Əlifba sistemlərinin elementlərinin, yəni hərflərin simvol adlandırılması da məhz bu ənənədən qaynaqlanır. Bu halda söhbət nəticə etibarı ilə birinci tip simvoldan, yəni konvensional işarədən gedir.

Söz (təbii dilin işarəsi) simvolik məna o zaman qazanır ki, o, mədəniyyət dillərindən (kodlarından) biri ilə kəsişir və bu zaman birinci sistemin işarələyəni ikinci sistemdə işarələnənə çevrilir.

Simvolik mənalar predmet mənaları əsasında yaranır: "xaç", "tac" və buna bənzər sözlər mədəniyyətin predmet kodunun elementləri olan obyektləri bildirir [Yakobson, 1967:s.43-45].

Bu yolla müəyyən edilən sözlərin simvolik mənaları linqvokulturologiyada və ona yaxın istiqamətlərdə fəal şəkildə öyrənilir; tədqiqat predmetinə somatik kodun nominasiyaları, məişət əşyalarının adları və mərasimi elementlərinin adları daxil edilir.

Bu yanaşmada simvolik məna mifoloji məna kimi başa düşülərək, sözün əsas mənasına qarşı qoyulur. Belə başa düşülən simvolik məna ikiplanlılıq xüsusiyyəti daşıyır; bu xüsusiyyət sözün həm sırf dil ünsiyyətində həm də mədəni kommunikasiya prosesində iştirak etməsi nəticəsində meydana çıxır.

Lakin simvolik mənanın ayrılması üçün sırf dilçilik meyarları aydın görünmür, çünki bu məna yalnız ritual və ya mərasim zamanı reallaşır, yəni ekstralinqvistik amillərlə müəyyən edilir. Bu problemin diskurs nəzəriyyəsi vasitəsilə, başqa sözlə, mərasimin linqvistik fenomeni kimi təsviri yolu ilə həll edilməsi təklif olunur. Bununla belə simvolik mənanın yalnız mərasim diskursu ilə məhdudlaşdırılması onun bütövlükdə dil üçün aktuallığını əhəmiyyətli dərəcədə azaldır. Söz – simvol mədəni konseptin müəyyən inkişaf mərhələsində meydana çıxan məzmun formalarından biri kimi nəzərdən keçirilir.

Sözün tarixində simvol anlayış və obrazın kəsişməsi nəticəsində yaranır; simvol anlayışdan yaranan obrazdır. Obraz və anlayışın sintezi, yəni dərk olunmuş obraz və ya dəqiq desək, obrazlı anlayış simvolik məna yaradır [Ravşanov, 2024:s.31-35]. Burada da simvolun ikiplanlılığına işarə edilir ki, bu da klassik anlayışa uyğundur. Simvol konkret bir predmetdən (obrazdan) ibarət olub, abstrakt bir obyektin (anlayışın) ötürülməsinə xidmət edir.

Beləliklə, ilkin olaraq belə müəyyən etmək olar ki, sözün simvolik mənası ümummədəni kommunikasiya üçün aktual olan, konkret və abstrakt komponentlərin birləşməsi və qarşılaşdırılmasından ibarət ikili struktura malik leksik mənadır.

Tarixi – leksikoloji araşdırma zamanı simvolik mənanın ikinci (“abstrakt” adlandırılan) hissəsini “qeyri-perseptiv” hissə adlandırmaq olar. Simvolun işarələnəni ilk növbədə hiss orqanları ilə qarşılaşdırılmaması ilə xarakterizə olunur. O, qeyri-müəyyən olub insan idrakının hüdudlarından kənarda yerləşir.

Qədim dillərdə və orta əsr mədəniyyətlərdə abstraktlıq kateqoriyası hələ tam formalaşmamışdı.

Simvolun ikiplanlılığını izah etmək və onun konvensionallığı və motivləşdirilmişliyi arasındakı ziddiyyəti aradan qaldırmaq bir dilçilik problemi kimi qarşıda durur. Ümumiyyətlə, dilçilikdə simvol termininin istifadəsi ziddiyyətlidir. Ferdinand de Sössürün simvol nəzəriyyəsi əsas xüsusiyyət kimi onun şərtiliyini və konvensionallığını ön plana çəkir; buna görə də motivləşdirilmiş simvol tipi təbii dildə mümkün hesab edilmir.

ƏDƏBİYYAT

1. Гацак В.М. Проблема значения. Москва, Наука, 1977.

2. Ковтун Л.С., Шанский Н.М., Шмелёв Э.Н. Языковая номинация. Ленинград, 1971.

3. Якобсон Р. Проблема значения в системе языка. Москва, 1967.

4. Равшанов М. Семиологическая и лексикографическая характеристика номинативных единиц. Ташкент, 2024.

5. Venti L. The Translators invisibility. Rutlege, 1995

СИМВОЛИЧЕСКОЕ ЗНАЧЕНИЕ В ИСТОРИИ И ЭТИМОЛОГИИ ЯЗЫКА

РЕЗЮМЕ

В статье исследуется категория значения слова. В структуре значения особое место занимает символическое значение.

Символическое значение особое семиотическое явление, характеризуемое обозначаемым, является образным знаком. Символическое значение образуется путём соединения первичных и вторичных значений слова.

Такие значения в основном наблюдаются при ритуальном использовании. В исторических источниках наблюдаются полисемические формы слова

Ключевые слова: историческая лексикология, лексическая семантика, история языка, символическое значение, полисемия.

THE SYMBOLIC MEANING OF THE WORD IN THE ETYMOLOGY AND HISTORY OF LANGUAGE

SUMMARY

The present article investigates the semantic category of the word. Meaning is conceptualized as a distinct semiotic phenomenon characterized by a dual sign structure and functioning as an iconic and figurative sign. Symbolic meaning emerges through the interaction and integration of a word's primary and secondary semantic values. Such meanings emerge primarily during the ritual use of language and are reflected in the forms of polysemy recorded in historical sources.

Keywords: historical lexicology, lexical semantics, semantics, history of language, symbolic meaning, polysemy (multiple meaning).